# Namazın şərtləri, rükunları və vacibləri

Müəllif: Şeyx Muhəmməd ət-Təmimi (rahiməhullah)

Tərcümə etdi: Elxan abu Omar əl-Qazveyni

# Giriş

Əziz oxucu, Allah səni bərəkətli etsin! Bil ki, Uca Rəbbimiz bizə yalnız Onun üçün namaz qılıb ibadət etməyi əmr edərək buyurmuşdur:

*"Həqiqətən də namaz möminlərə təyin olunan (müəyyən) vaxtlarda vacib edilmişdir" (Nisə, 103).*

Həmçinin buyurur:

*"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin" (Bəqərə, 43).*

Həmçinin buyurur:

*"Namaz qılın və zəkat verin! Özünüz üçün etdiyiniz xeyirlərin Allah yanında əvəzini alacaqsınız. Həqiqətən Allah sizin etdiklərnizi görəndir" (Bəqərə, 110).*

Əziz qardaş və bacılar, bu ayələr bizə yalnız Allah üçün namaz qılmağı və yalnız Ona ibadət etməyi əmr edir. Uca Allahın bu əmrləri həmin əməlin (namazın) Allah qatında nə qədər mühüm olmasına sübutdur. Beləliklə, hər bir əmr bizim üçün həyata keçirilməsi vacib olan bir əməldir, xüsusən də namaz. Çünki Rəbbimiz onun əda olunmasını əmr etmiş və onu tərk edəni Öz mübarək Kitabında qorxudaraq buyurmuşdur:

*"(Kafirlərdən soruşulacaq:) Sizi Səqara (Cəhənnəmdə bir quyunun adıdır) salan nə oldu? Deyəcəklər: "Biz namaz qılanlardan deyildik" (Muddəssir, 42).*

Əbu Hureyradan *(Allah ondan razı olsun)* rəvayət olunan hədisdə Allah Rəsulu Muhəmməd *(salləllahu aleyhi və səlləm)* belə buyurur: *"Əgər sizlərdən birinin həyatindən bir çay axarsa və o da orada gündə beş dəfə çimərsə, onun bədənində çirkdən bir şey qalarmı?" Dedilər, "xeyr, onun bədənində (çirkdən) heç bir şey qalmaz." Allah Rəsulu da buyurdu: "Beş (vaxt) namaz da bunun misalındadır. Allah onlarla günahları yuyub aparar"" (Səhih Muslim, 667).*

Əziz oxucu, Allah sənə rəhm etsin, namaz vacib olduğu kimi, ona aparan hər bir yol da vacibdir. Bu risalədə Şeyx Muhəmməd ət-Təmimi (Allah ona rəhmət etsin) namazın şərtlərinə, rükunlarına və vaciblərinə toxunur. Çünki bunların düzgün olması namazın Allah qatında qəbul olunmasına şərtdir. Uca Allah bizləri sözün ən gözəl olanına tabe olanlardan etsin. Əmin.

***Yazdı: Elxan abu Omar əl-Qazveyni.***

## Namazın şərtləri, rükunları və vacibləri.

Bismilləhir-Rahmənir-Rahim

**Namazın şərtləri doqquzdur:**

*1) İslam,*
*2) ağıl,*
*3) seçim,*
*4) ehtiyacı ortadan qaldırmaq,*
*5) nəcasəti ortadan qaldırmaq (təmizləmək),*
*6) övrət yerini örtmək,*
*7) vaxtın daxil olması,*
*8) qibləyə yönəlmək*
*9) və niyyət etmək.*

1-ci şərt, **İslam,** əksi isə küfrdür. Çünki kafirin əməli qəbul deyildir - nə əməl etsə də belə. Buna dəlil, Uca Allah buyurur:

*"Özlərində olan küfrə şahid olduqları halda, Allahın məscidlərini abadlaşdırmaq müşriklərə fayda verməz. Onların əməlləri puça getmişdir və onlar odda əbədi qalacaqlar" ( Tövbə, 17).*

Həmçinin buyurur:

*"Biz onların etdikləri əməllərini bilərək, puça çıxarıb toz dənələri kimi havaya yayarıq" (Furqan, 23).*

2-ci şərt, **Ağıl**, əksi isə dəlilikdir. Dəlinin üzərindən ağlı başına gələnə qədər qələm qaldırılmışdır. Səhih hədis buna dəlildir: *"Üç şəxsdən qələm qaldırılmışdır: yatmışdan - ayılana qədər, dəlidən - ağlı qayıdana qədər, uşaqdan - həddi buluğa çatana qədər."* (Hədisi Əbu Davud, Tirmizi, İbn Macəh və İmam Əhməd səhih isnadla rəvayət etmişlər.)

3-cü şərt, **Seçim**, əksi isə balacalıqdır. Hədd yeddi yaşına çatmasıdır, bundan sonra namaz qılmağa əmr olunur. Necə ki, Allah Rəsulu (salləllahu aleyhi və səlləm) buyurmuşdur: *"Yeddi yaşına çatdıqda övladlarnıza namaz qılmağı əmr edin, on yaşında ikən yataq yerlərini ayırın və (namaz qılmasalar) vurun."* (Hədisi İmam Əhməd rəvayət etmişdir.)

4-cü şərt, **Ehtiyacı ortadan qaldırmaq**, bu da bilindiyi kimi, dəstəmazdır və onun tələb etdiyi ehtiyaclardır. **Onun da (dəstəmazın kimə vacib olmasının) şərtləri ondur:**

1) İslam, 2) Ağıl, 3) Seçim, 4) Niyyət etmək, 5) Niyyətin hökmünün təharət bitənə qədər davamlı olması, yəni onu (dəstamazı) bilərəkdən kəsməmək, 6) Vacib edənin kəsməsi (yəni dəstəmazı pozan şeyin baş verməsi), 7) Dəstamazdan əvvəl sudan və ya xırda daşlardan istifadə etməklə ayaq yolunda təmizlənmək, 8) Suyun pak və mübah (halal) olması, 9) Dəriyə suyun çatmasına mane olan nə varsa, aradan qaldırmaq, 10) Təharəti tez-tez pozulan şəxs üçün fərz ibadətin vaxtının daxil olması.

**Dəstəmazın fərzləri isə altıdır:**

1) Üzün yuyulması - ağız və buruna su çəkmək də bura daxildir. Üzün uzunluq həddi - alnın yuxarısında saçların bitdiyi yerdən çənənin altına qədərdir, enlik həddi isə - qulağın yumşaq yerindən (qulaqla sifətin bitişmə yeri) digər qulağın yumşaq yerinə kimidir. 2) Əllərin dirsəklərlə bərabər yuyulması. 3) Başa bütünlüyü ilə - qulaqlar da daxil olmaqla, məsh etmək. 4) Ayaqların topuqlar da daxil olmaqla yuyulması. 5) Əzaları tərtiblə yumaq. 6) Davamlı olmaq (əzaları yuyarkən uzun fasilə verməmək). Dəlil olaraq, Uca Allah buyurur:

*“Ey iman gətirənlər, namaza durduğunuz zaman, üzünüzü və əllərinizi dirsəklərə qədər yuyun, başınıza məsh çəkin və ayaqlarnızı topuqlara qədər yuyun” (Maidə 6).*

Tərtibə isə dəlil, hədisdə varid olmuşdur: *“Allahın başladığı kimi (necə öyrətmişə, o cür) başlayın.”* (Hədisi Nəsəi səhih olaraq rəvayət etmişdir.)

Davamiyyətə dəlil isə “quru yer sahibi””nin hədisidir. Allah Rəsulu (salləllahu aleyhi və səlləm) bir kişinin dəstəmaz aldıqda ayağında dirhəm qədər yerin quru oldugunu gördü və ona təzədən dəstəmaz almağı əmr etdi.

**Dəstəmazın vacibi** isə xatırlayaraq **“bismilləh”** deməkdir (əgər deməyi unudarsa, dəstəmaz səhihdir).

Dəstəmazı pozan şeylər isə səkkizdir. 1) İki çıxışdan (ön və ya arxa ifrazat yollarından) çıxan hər bir şey, 2) Bədəndən çoxlu miqdarda çıxan murdar şeylər (qan, qusmaq, irin qanı və s. - ***səhih olan isə odur ki, bunlar dəstəmazı pozmur (tərcüməçi)***), 3) Ağlın getməsi, 4) Qadına şəhvətlə toxunmaq, 5) Ön və ya arxa övrətə (şəhvətlə) əllə toxunmaq,

6) Dəvə əti yemək, 7) Ölünü yumaq, 8) İslam dinindən çıxmaq - Allah bizi ondan qorusun.

5-ci şərt, **Nəcasətin aparılması** (təmizlənilməsi) üç şeydə olmalıdır: bədəndən, paltardan və namaz qılınan yerdən. Bunlara dəlil, Uca Allah buyurur:

*" Paltarını təmizlə" (Muddəssir, 4).*

6-cı şərt, **Övrət yerinin örtülməsi** barədə, Alimlər icma etmişlər. (Namaz qılan şəxs) özü buna qadir olduğu halda (bunu etməzsə), o kəsin namazı qəbul deyildir. Kişinin övrət yerinin həddi - göbəkdən diz qapaqlarına qədərdir (dizlər də daxil olmaqla), qul qadında da belədir, amma azad olan qadın isə, üzündən başqa hər yeri namazda bağlı olmalıdır. Bu barədə Uca Allah belə buyurur:

*"Ey Adəm övladı! Hər məscidə getdikdə gözəl geyimlərinizi geyin" (Əraf, 31)* - yəni hər namaza durduqda.

7-ci şərt, **Vaxtın daxil olması**. Buna sunnədən olan dəlil Cəbrailin (Allahın ona salatı və salamı olsun) hədisidir - namazın əvvəl və axır vaxtları barəsində deməsidir: *"Ey Muhəmməd, namaz bu iki vaxtın arasındadır."*

Həmçinin Uca Allah buyurur:

*"Həqiqətən də namaz möminlərə təyin olunan (müəyyən) vaxtlarda vacib edilmişdir" (Nisə, 103).*

Yəni, təyin olunmuş **vaxtlarda** vacib edilmişdir. Namazın vaxtlarına dəlil isə, Uca Allah buyurur:

*"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək (bəlli vaxtlarda) namaz qıl və sübh çağı Quran oxu (fəcr namazını da qıl)! Çünki sübh çağı oxunan Quranın şahidləri olur" (İsra, 78).*

8-ci şərt, **Qibləyə tərəf yönəlmək**. Buna dəlil, Uca Allah buyurur:

*"Biz artıq sənin üzünün səmaya tərəf yönəldiyini görürük və Biz səni razı qaldığın bir qibləyə yönəldəcəyik. Üzünü Məscidul-Harama tərəf çevir və harada olsanız belə, üzünüzü o tərəfə çevirin" (Bəqərə, 144).*

9-cu şərt, **Niyyətdir**, onun yeri qəlbdir, dil ilə tələffüz etmək bidətdir (yəni, dinə gətirilən yenilikdir). Buna da dəlil səhih hədisdir:

*"Əməllər yalnız niyyətlərə görədir, hər bir kəs üçün də yalnız niyyət etdiyi şey (qalır)."* ( Hədisi Buxari və Muslim rəvayət etmişlər.)

## Namazın rükunları.

**Namazın rükunları on dörddür**. 1) Bacardığı halda qiyamda (ayaq üstə) durmaq, 2) Başlanğıc təkbiri, 3) Fatihə surəsini oxumaq, 4) Rüku etmək, 5) Rükudan qalxmaq, 6) Yeddi əzanın üzərində səcdə etmək, 7) Səcdədən qalxıb düzələrək oturmaq, 8) İki səcdə arasında oturmaq, 9) Bütün bu rükunları qəlb rahatlığı ilə yerinə yetirmək, 10) Ardıcıllıqla etmək, 11) Sonuncu təşəhhüdü oxumaq, 12) Onun (sonuncu təşəhhüd) üçün oturmaq, 13) Allah Rəsuluna (salləllahu aleyhi və səlləm) salavat və salam demək, 14) Sağ və sol çiyinlərə salam vermək.

1-ci rükun, **Bacardığı halda qiyamda durmaq**. Buna dəlil, Uca Allah buyurur:

*"Namazları və orta namazı (əsr namazını) qoruyun və Allaha itaət edərək ayaq üstə durun" (Bəqərə, 238).*

2-ci rükun, **Başlanğıc təkbiri** (ehram təkbiri). Buna dəlil səhih hədisdir: *"Onu haram edən təkbirdir, halal edən isə təslimdir (salam vermək)"* (Hədisi əbu Davud və başqaları səhih olaraq rəvayət etmişlər.)

Ondan sonra isə açılış duası gəlir və bu, sunnədir. Belə deyilir: ***"Ey Allahım, Sən nöqsansızsan, həmd Sənədir, Sənin adın mübarəkdir, Sənin Böyüklüyün Ucadır və Səndən başqa ilah yoxdur."*** "Daş-qalaq olunmuş şeytandan Allaha sığınıram," "Əuzu" kəlməsi "Əluzu" və "Əltəci" mənasındadır. Allahın rəhmətindən qovulmuş, daş-qalaq olunmuş şeytanın şərindən sənə sığınıram ey Allah, (bu halda) o mənə dinimdə və dünyamda heç bir zərər verə bilməz.

3-cü rükun, hər rükətdə **Fatihə surəsini oxumaq** rükundur, necə ki, hədisdə varid olmuşdur: *"Kitabın Fatihəsini oxumayanın namazı yoxdur."* (Hədisi Buxari rəvayət etmişdir.)

(Fatihə surəsi) Quranın anası adlanır.

"Bismilləhir-Rahmənir-Rahim", Bərəkət və sığınmaqdır.

"Əl-həmdu lilləhi", "əl-həmd" - səna etməkdir, əlif-ləmin həmd sözünə daxil olması "istiğraq" deməkdir, yəni həmdin hər növünü özündə əhatə edir. Amma demək ki, (Allah) gözəldir, hansı ki, gözəllikdə Onun kimi yaradan yoxdur - bu cür misal çəkmək, bu cür səna etmək Allaha mədh (tərif etmək) sayılır, həmd etmək sayılmır.

"Rabbil ə`ləmin" - Rəbb, O, ibadət olunan, xəlq edən, ruzi verən, Məlik (hökmdar) olan, idarə edən, bütün məxluqlarını nemətləri ilə

xəlq edəndir. “A`ləmin” - Allahdan başqa hər bir şey “aləm”dir və O onların hamısının Rəbbidir.

“Ər-Rahmən” - bütün məxluqlara ümumi rəhmət edən deməkdir, “Ər-Rahim” isə möminlərə xaslaşdıraraq rəhmət edən deməkdir. Buna dəlil, Uca Allah buyurur: *“Möminlərə Rəhimli olandır” (Əhzab, 43).*

“Məliki yəumid-din” - Mükafat və hesab günü deməkdir, o gün hər bir kəs öz əməlinə görə mükafatını (və ya cəzasını) alacaqdır. Əgər xeyir edibsə, xeyir görəcəkdir, yox əgər şər edibsə, şər görəcəkdir. Buna da dəlil, Uca Allah buyurur: *“Sən nə bilirsən ki, Din günü nədir?! (İnfitar 17).*

Bu barədə hədisdə isə, Allah Rəsulu (salləllahu aleyhi və səlləm) belə buyurmuşdur: *“Ağıl sahibi odur ki, öz nəfsini hesba çəkər və ölümdən sonra üçün əməl edər, aciz olan isə o kəsdir ki, havasına (nəfsinin istəyinə) tabe olar və Allaha təmənnalar (ümidlər) edər.”* (Hədisi Tirmizi rəvayət etmişdir.)

“İyyəkə nə’budu” - yəni, Səndən qeyrisinə ibadət etmirik - qul ilə öz Rəbbi arasında olan əhddir ki, (qul) yalnız Ona ibadət etsin. “Və iyyəkə nəstə’in” - qul ilə öz Rəbbi arasında olan əhddir ki, (qul) Allahdan başqasından kömək istəməsin.

“İhdinəs-sıratal-mustəqim” - mənası odur ki, “ihdinə” bizə yol göstər, bizi yönləndir və bizi sabit et. “Sırat” (kəlməsinin mənası üçün deyilib ki,) İslam deməkdir (yəni, həqiqi doğru olan yol İslamdır). Həmçinin (bu kəlmənin mənasının) Rəsul olduğu və Quran olduğu deyilmişdir və bunların da hər biri haqdır. “Mustəqim” sözü isə, düzgün yola deyilir, hansı ki, orada əyrilik yoxdur.

“Sıratal-ləziynə ən’əmtə ə’leyhim” – özlərinə nemət verilmiş kəslərin yoluna deyilir. Buna dəlil, Uca Allah buyurur: *”Kim Allaha və Rəsula itaət edərsə, o kəslər Allahın nemət verdiyi Peyğəmbərlərlə, Siddiqlərlə, Şəhidlərlə və Salehlərlə birlikdədir. Onlar necə də gözəl dostlardır” (Nisə, 69).*

“Ğayril məğdubi ə’leyhim” - onlar yəhudilərdir, onlarda elm vardı, lakin onlar o elmə əməl etmədilər, Allahdan istəyirik ki, səni onların yolundan uzaqlaşdırsın.

“Va-ləd-da~llin” - onlar isə nəsranilərdir, Allaha cahilliklə və zəlalətlərlə ibadət edirlər, Allahdan istəyirik ki, səni onların da yolundan uzaq etsin. Zəlalət əhlinə dəlil olaraq Uca Allah buyurur:

*“De, “sizə əməllərində xüsrana uğrayanlar barədə xəbər verəkmi?! Hansılar ki, dünya həyatında etdikləri əməlləri zaya getdi və onlar elə hesab edirlər ki, yaxşılıqlar edirlər”” (Kəhf, 103-104).*

Hədisdə isə onlar barəsində Peyğəmbər (salləllahu aleyhi və səlləm) buyurmuşdur: *"Siz, sizdən əvvəlkilərin yollarına qarışbaqarış tabe olacaqsınız. Əgər onlar kərtənkələ yuvasına girsələr, siz də girəcəksiniz. Dedilər ki, "ey Allahın Rəsulu, onlar yəhudi və nəsranilərdirmi?" Dedi, "Başqa kim olacaq ki?!""*( Hədisi Buxari və Muslim rəvayət etmişlər.)

İkinci hədisdə isə, *"Yəhudilər yetmiş bir firqəyə, nəsranilər yetmiş iki firqəyə, mənim ümmətim isə yetmiş üç firqəyə bölünəcəkdir. Hər biri oddadır, yalnız birindən başqa." Biz dedik, "Ey Allahın Rəsulu, o firqə hansıdır?" Dedi, "Mənim və səhabələrimin olduğu yol üzərində olanlar.""* (Hədisi əbu Davud və başqaları səhih olaraq rəvayət etmişlər.)

4-5-6-7-8-ci rükunlar, **rüku etmək**, **rükudan qalxmaq**, **yeddi əza üzərində səcdə etmək**, **ondan qalxıb düzəlmək** və **iki səcdə arasında oturmağa** dəlil isə, Uca Allah buyurur:

*"Ey iman gətirənlər, ruku və səcdə edin" (Həcc, 77).*

Onlar barəsində hədisdə isə, Allah Rəsulu (salləllahu aleyhi və səlləm) buyurub: *"Yeddi əza üzərində səcdə etməklə əmr olundum."* (Hədisi Buxari rəvayət etmişdir.)

9-10-cu rükunlar, **bütün əməlləri rahatlıqla etmək** və **rükunları tərtiblə etmək**. Buna dəlil, Əbu Hureyradan gəlmiş, namazını doğru olmayan şəkildə qılan kişinin hədisidir. (Əbu Hureyra) dedi, *"Bir gün Peyğəmbərin (salləllahu aleyhi və səlləm) yanında oturmuşduq. Bir kişi daxil olub namaz qıldı və gəlib Peyğəmbərə (salləllahu aleyhi və səlləm) salam verdi. Allah Rəsulu (salləllahu aleyhi və səlləm) dedi: "Qayıt və yenidən namaz qıl, çünki sən namaz qılmadın." Həmin kişi bunu üç dəfə təkrar etdi və sonra dedi, "Səni haqla Peyğəmbər göndərənə and olsun ki, bundan başqa cür namaz qılmağı bacarmıram, məni öyrət." Peyğəmbər (salləllahu aleyhi və səlləm) ona dedi, "Namaza qalxdığında təkbir gətir, sonra Qurandan bildiyini oxu, sonra rüku et, hətta qəlbin rahat olana qədər rükuda dur, sonra rükudan qalx, hətta düzəlib rahat olana qədər dur, sonra səcdə et, hətta rahat olana qədər səcdədə dur, sonra qalx otur, hətta oturduqda rahat olana qədər (qal). Sonra bunları hər namazında belə et.""* (Hədisi İmam Dərimi rəvayət etmişdir.)

11-ci rükun, **sonuncu təşəhhüd** fərz olunan rükundur. Abdullah ibn Məsuddan (Allah ondan razı olsun) gələn hədisdə o, belə dedi, *"Bizə təşəhhüd **fərz** olunmamışdan öncə belə deyərdik, "Qullarından Allaha salam olsun, Cəbrayıla və Mikayıla salam olsun". Allah Rəsulu (salləllahu aleyhi və səlləm) dedi: "Qullarından Allaha salam olsun" deməyin, çünki Allah - O Özü Salamdır, lakin belə deyin, "Bütün əzəmət, bütün dualar və ən gözəl olan*

*əməllər Allahadır. Ey Peyğəmbər, sənə salam və Allahın rəhməti və bərəkəti olsun! Salam olsun bizə və Allahın saleh qullarının üzərinə. Şəhadət edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.""* (Hədisi imam Nəsəi səhih olaraq rəvayət etmişdir.)

"Təhiyyət"in mənası, bütün əzəmətliliyin Allaha olmasıdır - mülkü və haqqı ilə, məsələn boyun əymək, rüku etmək, səcdə etmək, (ibadət üzərində) sabitlik və (ibadətlərin) davamiyətli olması, həmçinin bütün o şeylər ki, onunla aləmlərin Rəbbi olan Allahı təzim etmək olar - onlar Allaha aiddir, kim onlardan birini Allahdan qeyrisinə yönəldərsə, o kəs müşrik və kafirdir.

"Salavat"ın mənası isə, bütün dualar deməkdir, həmçinin deyilmişdir ki, beş vaxt namazlar (da buraya daxildir).

"Tayyibətlər Allahadır" - yəni, Allah ən yaxşısıdır və O, sözlərin və əməllərin ən yaxşısını qəbul edir.

"Əssələmu əleykə yə əyyuhən nəbiyyu va rahmətullahi və bərakətuhu" - bununla sən Peyğəmbər (salləllahu aleyhi və sələm) üçün salamatlıq, rəhmət və bərəkət istəyərək dua edirsən. Onun üçün dua edilir, amma (o,) Allahla yanaşı çağırılmır.

"Əssələmu əleynə və a'lə i'bədilləhis-salihin", sən özünə, həmçinin səmada və yerdə olan bütün saleh qullara salam vermiş olursan. Salam da dua deməkdir. Salehlər üçün dua edilir, amma (onlar) Allahla yanaşı çağırılmırlar.

"Əşhədu ən-lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu" - yəqinliklə şəhadət edirsən ki, yerdə və göydə haqqı ilə ibadətə layiq olan yalnız Allahdır.

Və şəhadət etmək ki, "həqiqətən Muhəmməd Allahın elçisidir", çünki o, quldur - ibadət olunmaz, rəsuldur - yalan sayılmaz, əksinə itaət olunub ona tabe olunar. Allah onu qulluq etməklə şərəfləndirmişdir və buna dəlil, Uca Allah buyurur:

*"Öz quluna aləmləri qorxutmaq üçün Furqanı nazil edən (Allah) Mübarəkdir." (Furqan, 1)*

"Allahummə salli a'lə Muhəmmədin və a'lə əli Muhəmməd, kəmə salleytə a'lə İbrahimə innəkə Həmidun Məcid" Allahdan olan salat, Öz qulunu ən uca məqamda səna etməsidir, necə ki, Buxari öz səhihində Əbu Ə`liyədən rəvayət etmişdir: *"Allahın salatı, Öz qulunu uca məqamda səna etməsidir."* Həmçinin deyilmişdir ki, rəhmətdir. Düzgün olan isə birinci deyiləndir. Mələklərdən (olan salat) - istiğfar diləməkdir (yəni

mələkər onlar üçün bağışlanma diləyir), adəm övladından (olan salat) isə, duadır. Bərəkət və ondan sonra gələnlər, sözlər və əməllərin sunnələridir.

**Namazın vacibləri səkkizdir.**

1) Bütün təkbirlər - birinci təkbirdən başqa,
2) Rükuda "SubhənəRabbiyəl Azim" demək,
3) "Səmiə'llahu limən həmidəh" demək - imam və ona tabe olana (vacibdir),
4) "Rabbənə və ləkəl həmd" demək - hər kəsə (vacibdir),
5) Səcdədə "Subhənə Rabbiəl əa'lə" demək,
6) İki səcdə arasında "Rabbi-ğfir-li" demək,
7) Birinci təşəhhüd,
8) Onun (birinci təşəhhüd) üçün oturmaq.

Rükunlardan hansısa səhvən və ya bilərəkdən düşərsə, namaz onun düşməsi ilə batil olar. Vaciblərdən isə nə ki, bilərəkdən düşərsə namaz batil olar, yox əgər səhvən düşərsə səhv səcdəsi tələb olunar. Allah daha yaxşı biləndir.

***Tərcümə etdi: Allaha möhtac qul, Elxan abu Omar Fərhadlı əl-Qazveyni.***